*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 avqust 2016-cı il № 60 (2075) Qiyməti 25 qəpik


## Rəsmi xronika

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri, Azərbaycan və İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Mahmud Vaezinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, Xəzər dənizində əməkdaşlıq məsələləri müzakirə edildi, energetika, neft-qaz, nəqliyyat, sərmayə qoyuluşu, maliyyə, bank, kənd təsərrüfatı, turizm və səhiyyə sahələrində əlaqələrin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vey Cinhuanın etimadnaməsini qəbul edib.***

***Dövlətimizin başçısı artıq Azərbaycan vasitəsilə Çindən Avropa bazarlarına ilk test daşımalarının həyata keçirildiyini qeyd edərək ölkələrimiz arasında bütün başqa istiqamətlərdə də əlaqələrimizin inkişafı üçün böyük qarşılıqlı marağın olduğunu dedi.***

***Görüşdə ölkələrimizin radikalizm, ekstremizm və terrorizmə qarşı mübarizədə səylərinin birləşdirilməsinin vacibliyi qeyd olundu.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Vaxtanq Qomelaurini qəbul edib.***

***Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən təhlükəsizlik orqanları arasında genişləndirilməsinin önəmi qeyd olundu. Azərbaycan ilə Gürcüstanın xüsusi xidmət orqanlarının qarşılıqlı fəaliyyətinin ölkələrimizin təhlükəsizliyinin möhkəmləndirilməsi işinə də öz töhfəsini verdiyi vurğulandı.***

**AZƏRTAC-ın materialları əsasında**

Ali Baş Komandan İlham ƏLİYEV:

*Bizim ən böyük gücümüz əsgərlərimizin cəsarəti, vətənpərvərliyidir. Bu gün Azərbaycanda elə gözəl gənc nəsil yetişib ki, onların hamısı Ali Baş Komandanın əmrini gözləyir.*

# "Bu torpağa bağlıyam"



*Ağac öz torpağında daha qüdrətlə böyüyür, bar-bəhər verir, yan-yörəsini kölgələndirir. Ağacın torpağa bu mehrini həmişə görk bilmişəm; torpaq ona sığınanları, ona bağlıları göylərə ucaldır. İnsan da ucalığa - ucalara can atır, bəzən yaşam niyyəti kimi, ömür fəlsəfəsi kimi, könül rahatlığı kimi, özündən sonra gələnlərə havadar kimi,... Şimşək çaxanda "sinəsini qabağa verir" - pöhrələrə sədəmə toxunmasın, böyüsünlər, ağac olsunlar, bar versinlər, kölgə salsınlar. Vətən olan torpağa görə.*

Təbiətin öz dili var; təbiəti dərk eləyəndə daha ecazkar olur. Yağış da belədi, şimşəyin çaxışı da belədi, çiçək ləçəyində şeh də, ləçək titrədən meh də, yağışdan sonra qövsi-qüzeh də belədi; baxırsan, görürsən, duyursan, vurulursan, ruhən durulursan. Onda dünya elə gözəlləşir ki! Gözəlləşən dünyada öz dünyanı qurursan, yaşayırsan, yaşadırsan, daşı daş üstə qoyana mədəd olursan, daş atana daş atırsan... "Biz gəldi gedərik" demirsən, "nəfəsimiz gəldi gedərdi" deyirsən; əməlin qalır, qurduğun-yaratdığın qalır - sən qalırsan. Cavanşir kimi, Nizami kimi, Füzuli, Xətai kimi,... Yusif Mirzəyev, Mübariz İbrahimov, Samid İmanov,... kimi... Onlar amalıyla, əqidəsiylə, dum-duru düşüncəsiylə Vətənə, torpağa bağlı idi.

Ağac torpağa kökləriylə, rişələriylə bağlanır, insan duyumuyla, sevgisiylə. İnsan torpağı duya-duya sevir, sevə-sevə bağlanır ona. Bağlanıb qoruyur, keşiyini çəkir - Azərbaycan əsgəri kimi. Azərbaycan əsgəri hər gün yanından keçdiyi bu kökləri görür, baxır, dərk edir. Dərk edir ki, belə bağlılıq yoxdursa, yaşantılar haramdı. Ürəyinin gözüylə baxanlar görür ki, torpağa bağlanmadan onu sevmək, sevmədən ona bağlanmaq mümkün deyil; torpağı sevə-sevə qoruyur, qoruya-qoruya sevir Azərbaycan əsgəri.

Azərbaycan əsgəri var səsiylə "Mən Azərbaycan əsgəriyəm!" - deyir. "Mən bu torpağa bağlıyam. Qoymaram ki, onun üstündə yad yellər əssin, ağacının budağını yad yellər əysin, ona yad nəfəsi dəysin!"...

Sən varsan, əsgər qardaşım! Siz varsınız! Siz varsınız deyə ağaclarımızın kökü, rişəsi öz torpaqlarımıza daha möhkəm bağlanacaq! O ağacları görənlər, sizləri görənlər torpağa daha böyük sevgilərlə, bəşəri istəklərlə bağlanacaq! Sən həm də bu amalın əsgərisən, Azərbaycan əsgəri!..

**"Azərbaycan Ordusu"**

# Müdafiə naziri Türkiyənin Azərbaycandakı səfiri ilə görüşüb



*Avqustun 3-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab İsmayıl Alper Coşkun ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında əlaqələrin hazırkı vəziyyəti, əməkdaşlığın inkişaf perspektivləri, regiondakı hərbi-siyasi durum və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Azərbaycan ilə Böyük Britaniya Silahlı Qüvvələri arasında əməkdaşlığın perspektivləri müzakirə olunub



Avqustun 3-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdə yeni təyin olunmuş səfiri xanım Karol Krofts ilə görüşüb.

Müdafiə naziri qonağı yeni təyinatı münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Regiondakı hərbi-siyasi vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirə edildiyi görüşdə Azərbaycan-Böyük Britaniya münasibətlərinin inkişaf səviyyəsindən məmnunluq ifadə olunub, Silahlı Qüvvələr arasında əməkdaşlığın daha da genişləndirilməsinin və hərbi təhsil sahəsində əldə edilən razılaşmaların inkişaf etdirilməsinin vacibliyi xüsusi vurğulanıb.

Sonda Müdafiə naziri səfirin fəaliyyəti dövründə ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın daha da inkişaf edəcəyinə ümidvar olduğunu qeyd edib.

Britaniyalı diplomat isə öz növbəsində əlaqələrin daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

# Müdafiə naziri İranın Azərbaycandakı səfiri ilə görüşüb

*Avqustun 5-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Möhsün Pakayin ilə görüşüb.*



Müdafiə naziri Azərbaycan ilə İran arasında münasibətlərin inkişafında ölkə rəhbərlərinin görüşlərinin mühüm rol oynadığını və hərbi sahədə də əlaqələrin uğurla davam etdiyini bildirib.

Tərəflər hərbi sahədə əməkdaşlığın mövcud vəziyyətini, hərbi təhsil və hərbi tibb sahəsində əlaqələrin inkişaf perspektivlərini müzakirə edib, o cümlədən regional problemlər ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə səfir M.Pakayin İran Silahlı Qüvvələrinin Azərbaycana yeni təyin olunan hərbi attaşesi, polkovnik Əli Seyfini Müdafiə nazirinə təqdim edib.

General-polkovnik Zakir Həsənov hərbi attaşeni təyinatı münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb və ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın daha da inkişaf edəcəyinə ümidvar olduğunu bildirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsait

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli, 755 nömrəli Fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrə Yardım Fonduna 1 avqust 2016-cı il tarixədək 75.620.079.90 AZN, 212.373.88 ABŞ dolları, 3893.69 avro və 5000.0 rubl vəsait daxil olub.

## Düşmən təxribatı nəticəsində hərbi qulluqçumuz yaralanıb

Avqustun 5-də düşmən təxribatının qarşısını alarkən Silahlı Qüvvələrimizin hərbi qulluqçusu əsgər Şindiyev Ramazan Qurban oğlu yaralanıb.

Hərbi qulluqçumuza lazımi tibbi yardım göstərilib, həyati təhlükəsi yoxdur.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Müdafiə Nazirliyi bildirir ki, atəşkəs rejiminin pozulması və hərbi qulluqçumuzun yaralanmasına görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***3 avqust 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 16 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan kəndində, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi və Ağbulaq kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndləri yaxınlığında və Goranboy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***4 avqust 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 18 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan, İcevan rayonunun Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun Mərzili, Tərtər rayonunun Çiləbürt, Füzuli rayonunun Horadiz, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***5 avqust 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 11 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Barekamavan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Qaymaqlı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Füzuli rayonunun Aşağı Seyidəhmədli, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Füzuli rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Müdafiə naziri Silahlı Qüvvələrimizin xarici ölkələrdəki hərbi attaşeləri ilə görüşüb



*Avqustun 4-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikası Silahlı Qüvvələrinin xarici ölkələrdə və beynəlxalq təşkilatlarda akkreditə olunmuş hərbi attaşe və hərbi nümayəndələri ilə görüşüb.*

Əvvəlcə tədbir iştirakçıları Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin binasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Sonra Müdafiə naziri görüş iştirakçıları qarşısında geniş çıxış edib.

Nazir Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yüksək diqqət və qayğısı nəticəsində orduda bütün istiqamətlər üzrə aparılan islahatların əhəmiyyətindən danışıb.

Cəbhə xəttindəki son vəziyyətdən danışan Müdafiə naziri Silahlı Qüvvələrin təşkilat-ştat strukturunun təkmilləşdirilməsinin, ordunun müasir silah-sursat, zirehli texnika və döyüş vasitələri ilə təchiz edilməsinin, şəxsi heyətin döyüş qabiliyyətinin artırılması məqsədilə yeni poliqonların istifadəyə verilməsinin və müxtəlif qoşun növlərinin cəlb olunması ilə təlimlərin keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Müdafiə naziri hərbi qulluqçuların sosial-məişət şəraitlərinin yaxşılaşdırılması üçün



yeni hərbi şəhərciklərin, xidməti və daimi mənzillərin istifadəyə verildiyini vurğulayaraq bu sahədə görüləcək işləri və digər tədbirləri hərbi attaşelərin diqqətinə çatdırıb.

Həyata keçirilən xidməti fəaliyyətlərə, o cümlədən xarici hərbi prioritetlərimizə dair geniş məruzənin sonunda general-polkovnik Zakir Həsənov şəxsi heyət qarşısında duran məqsəd və tapşırıqları müəyyən edib, qarşıya konkret vəzifələr qoyub və tövsiyələrini verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Ön xətdən reportaj*

# Vətən, sənin əsgərinəm!..

*Qatar stansiyaya yaxınlaşır. Bələdçinin "hazırlaşın, düşürsünüz" sözləri məni xəyaldan ayıldır. Dəmiryolu stansiyasından gələn səslər uşaqlıq illərimi xatırladır. Atam da hərbçi olub. Qazaxda xidmət edəndə həmişə qatarla gedib-gələrdik...*

Bu yerlərin füsunkar təbiəti var. Bir gündə üç fəsil - səhərlər dağların qoynundan axıb gələn çən, günortaya yaxın buludları yararaq qızmar şüasını yerə səpələyən günəş, axşama doğru yağış...

Göyləri bürüyən ağappaq buludlar, üzümüzü oxşayan həzin meh adama "xoşgəldin" deyir. Bir qədər keçmiş rayon mərkəzinə çatırıq.

Vətən keşikçilərinin görüşünə tələsirik. Uzun yolun sonunda posta çatırıq.

Baş leytenant İltifaq Ağayevlə səngərdə görüşürük. Əslən Lerikdən olan gənc zabit 2006-cı ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub. Daha sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. 2014-cü ildən orduda xidmətdədir. Çətin və şərəfli yolun yolçusu olan zabitə görə, peşə seçimi gənclərin həyatında ən mühüm hadisədir. "Mütləq bir qərar verməli, həyat yolunu özün secməli, yiyələndiyin peşəyə ürəkdən bağlanmalısan.

Hərbçi peşəsini öz istəyimlə seçmişəm. Uşaqlıqdan bu sahəyə marağım olub. Çətin peşə olsa da, ən şərəfli peşədir. Vətəni qorumaq kimi önəmli bir vəzifəni yerinə yetirirəm. Aldığım hərbi bilikləri əsgərlərimlə bölüşürəm. Onların bacarıqlı döyüşçü kimi yetişməsi üçün əlimdən gələni edir, hər an qayğıları ilə maraqlanıram. Bu peşənin ən qürurverici cəhəti ondadır ki, bütün xalq səninlə fəxr edir. Xalqın güvənc yeri, qürur mənbəyi olan orduda xidmət edirsən."

Əsgər Məhəmməd Cəfərov dağlardan toplanmış çiçəklərdən dəmlədiyi çaya bizi qonaq edir.



- Hərbi xidmətə Ağcabədi rayonundan çağırılmışam, - deyir. - 13 aydır xidmət edirəm. Vətənə xidmətimlə qürur duyuram.

Döyüş növbəsində olan əsgərlərin yanına yollanırıq. İrəlilədiyimiz mövqelər neçə-neçə mərd oğula mənzil, düşmənə isə məzardır.

Əsgər Qismət Fərəcov 4 aydır burada Vətənimizi düşməndən qoruyur. Hərbi xidmətə Cəlilabad rayonundan çağırılıb.

"Qardaşım Rəcəb də hazırda xidmətdədir. İkimiz də eyni gündə əsgərliyə gəlmişik. Bizi hərbi xidmətə yola salanda atam çox qürurlanmışdı. O deyirdi ki, bizim vaxtımızda öz Vətənimizdə xidmət edə bilmirdik. İndi xoşbəxtik ki, övladlarımız müstəqil Azərbaycanımızda, ata-baba torpaqlarımızda xidmət edirlər. Həm də qürurluyam ki, eyni gündə iki oğlum hərbi xidmətə yollanır. Atam ikimizin də alnından öpüb "Bu Vətən sizlərə arxalanır. Onu göz bəbəyiniz kimi qoruyun" demişdi. Barmağım tətikdə, gözüm nişangahda postda ayıq-sayıq dayanmışam."

Növbəti mövqeyə üz tuturuq. Səngərdə irəlilədikcə bu yerin müqəddəsliyini bir daha dərk edirsən. Azərbaycan əsgəri burada da şaxta-boran bilmədən gecə-gündüz keşik çəkir.

Əsgər Rəşad Əliyevlə tanış oluruq. Rəşad hərbi xidmətə Ağdam rayonundan çağırılıb. Qumbaraatan vəzifəsindədir. Əsgər R.Əliyev deyir:

- Həyata bir dəfə gəlir insan. Və bu həyatı elə yaşamaq lazımdır ki, daim ürəklərdə xatırlanasan. Könüllərdə daim yaşayan şəxslər Vətəni üçün yaşayanlardı. Necə ki, Mübarizi, Samidi, Fəridi və digər qəhrəmanları Azərbaycan, dünya tanıyır. Onlar Vətən üçün yaşadılar, ana torpaq üçün canlarından keçdilər. Ən uca zirvəyə yüksəldilər. Bütün əsgər yoldaşlarıma da belə qəhrəmanların davamçıları olmağı arzulayıram.

Gecə-gündüz səngərlərdə Vətənin keşiyini çəkən oğulları tanımaq, söhbətləşmək adamda xoş hisslər oyadır. Onlara müqəddəs vəzifə - Vətəni qorumaq tapşırılıb. Bu vəzifənin öhdəsindən layiqincə gələn gənclərimizlə tanış olduqca dövlətinlə, xalqınla, ordunla fəxr edirsən...

Növbəti həmsöhbətimiz isə əsgər Emil Ağaməmmədovdur, hərbi xidmətə Zaqatala rayonundan çağırılıb. Ailənin böyük oğlu olan Emil fikirlərini bizimlə bölüşür:

- Mən xidmətə gələndə qardaşlarım məndən daha çox həyəcanlanmışdılar, - deyir. - Həm əsgərliyə getdiyimə görə sevinirdilər, həm də məndən ayrıldıqları üçün üzülürdülər. Əziz qardaşlarım, əmin olun ki, xidmətimi uğurla davam etdirirəm. Əsgəri xidmətdə qardaş qədər yaxın olan dostlar qazanmışam. Əsgərlik dostluğu elə qardaşlıq deməkdir. Belə dostlarımdan biri də əsgər Rəhman Şahmalıyevdir. Rəhman bu yaxınlarda tərxis olundu. Biz bu dostluğu əbədi olaraq davam etdirəcəyik. Siz də bu yerlərə gələcək, Vətənə xidmət edəcək və mənim kimi dostlar qazanacaqsınız.

Emil danışdıqca əsgərlik dostlarım yadıma düşür. "Növbədə olduğum zaman heç bir hadisə baş verməyib" sözləri məni xəyallarımdan ayırdı. Bu, atıcı əsgər Yelmar Babayev idi. Yelmar hərbi xidmətə Sumqayıt şəhərindən çağırılıb.

"Qardaşım da Ağdamda döyüş postunda xidmət edib. Ən məsuliyyətli xidmət cəbhə xəttindədir. Hərbi xidmət mənə bir çox üstün keyfiyyətlər qazandırıb. Vətənpərvərlik hissimi artırıb, nizam-intizamlı, səliqə-sahmanlı olmağı öyrədib. O, həmçinin Aprel döyüşlərindəki qələbə döyüş ruhumuzu daha da artırdı. Məğlubiyyətə düçar olan düşmən hər an yenidən təxribat törədə bilər. Buna görə də hər birimiz Vətənin keşiyində ayıq-sayıq dayanırıq."

İnsan gördüyü işə qiymət verildiyini hiss etdikdə, daha da ruhlanır. İstənilən sahədə belədir. Əsgərlərimiz də onlara göstərilən diqqət və qayğıdan fərəhlənir, xidmətdə daha da nümunəvi olmağa çalışırlar. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin "Vətəni müdafiə etməyə çalışan hər bir vətəndaş, hər bir gənc bizim üçün əziz, qiymətli və dəyərlidir" sözləri hər bir əsgərimizə, Vətəni can-başla qoruyan döyüşçüyə verilən ən yüksək qiymətdir.

...Azərbaycan əsgəri qürurla, sevgilərlə deyir ki, Vətənimi qoruyuram!

**Mahmud MÖHBALIYEV, "Azərbaycan Ordusu", foto müəllifindir**

AZƏRBAYCAN ORDUSU

Döyüş hazırlığı

# Topçular peşəkarlıq nümayiş etdirdilər

## Cəbhə bölgəsində döyüş tapşırığını yerinə yetirən şəxsi heyətin ixtisas və taktiki hazırlığının yüksəldilməsi daim diqqət mərkəzindədir

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Silahlı Qüvvələrimizin birləşmə və hissələrində ikinci yarımilliyə start verilib. Hərbi kollektivlər yeni mövsümün tapşırıqlarına uyğun ixtisas, taktiki və mənəvi-psixoloji hazırlıqlarını artırmaqla məşğuldurlar. Bir sözlə, aparılan kompleks məşğələlər, çöl çıxışları, praktik məşqlər şəxsi heyətin bilik və bacarığının yüksəldilməsinə yönəlib.*





Hərbi hissələrimizdə döyüş hazırlığının yüksəldilməsi şəxsi heyətin qarşısında duran başlıca vəzifədir. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, hərbi hissələrimizin bir qismi düşmənlə üzbəüz ərazilərdə həm də döyüş növbəsi aparır və Azərbaycanın ərazi bütövlüyünün keşiyində dayanır. Cəbhə bölgəsində döyüş tapşırığını yerinə yetirən şəxsi heyətin ixtisas və taktiki hazırlığının yüksəldilməsi də daim diqqət mərkəzindədir.

"N" hərbi hissəsinə ezam edilərkən bir daha bunun şahidi olduq.

Burada şəxsi heyət Müdafiə Nazirliyi tərəfindən müəyyən edilmiş döyüş hazırlığı planında nəzərdə tutulan tədbirləri ardıcıl yerinə yetirir.

- Bizim üçün başlıca vəzifə döyüş tapşırığının yerinə yetirilməsidir, - bizimlə söhbətində zabit Daşqın Bənnayev dedi. - Ona görə Ermənistan silahlı bölmələri ilə üzbəüz mövqelərdə döyüşçülərimiz gecə-gündüz yurdumuzun keşiyində ayıq-sayıq dayanır, məkrli düşmənin təxribatlarının qarşısını məharətlə alırlar. Əlbəttə, yetərincə hazırlığı olmayan hərbi kollektiv düşmən qarşısında duruş gətirə bilməz. Ona görə bölmələrimiz bu iki vəzifəni döyüş hazırlığı planına uyğun olaraq paralel şəkildə yerinə yetirir. Bölmələrimizin döyüş və mənəvi-psixoloji hazırlığını yüksək səviyyədə saxlamaq üçün Müdafiə Nazirliyi tərəfindən müəyyən edilmiş qaydalara uyğun kompleks tədbirlər həyata keçiririk.

Doğrudan da, bir qədər keçmiş artilleriya bölməsinin şəxsi heyəti əraziyə yola düşür və müəyyən edilmiş məkanda öz mövqelərini tutur. Bölməyə həvalə edilmiş hərbi texnika, avtomobillər, silahlar təzə və müasirdir. Döyüş hazırlığı dərsləri bacarıqlı zabitlər tərəfindən vaxtında keçirildiyindən şəxsi heyət lazımi bilik və peşə vərdişlərinə yiyələnib.

"Döyüşə!" komandası verilən kimi top komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Abuzər Alıyev heyət üzvlərinə əmri təkrar səsləndirdi.

Hər bir heyət üzvü dərhal əmri yerinə yetirməyə başladı və topçular vəzifə bölgüsünə uyğun hərəkət edərək qurğunu döyüşə hazır vəziyyətə gətirməyə tələsdilər.

Baş tuşlayıcı əsgər Tural Babazadə optik cihazı cəld qılafından çıxarıb nişangahın səbətciyinə bərkitdi. Və sıfır vəziyyətinə gətirdi. Digər topçular qundaq qolunu açdılar. Klini döyüş vəziyyətinə gətirdikdən sonra onlar topun ətrafında öz yerlərini tutdular. Top komandiri dərhal bayrağı qaldirib heyətin döyüşə hazır olduğunu bildirdi.

- Heyət gündəlik məşğələlərdə yetərincə məşq etdiyindən və lazımi vərdişləri qazandığından çətinlik çəkmədi və topu normativə uyğun döyüş vəziyyətinə gətirməyi bacardı, - zabit Rahil Dadaşov bizimlə söhbətində bildirdi. - Onların hər birinin hərəkəti məni artilleriya zabiti kimi qane etdi. Topçularımız hazırda atəş mövqeyinin tutulması və atəşə qədər görülən işləri yerinə yetirdilər.

Eyni zamanda onu da qeyd etmək yerinə düşər ki, top komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Abuzər Alıyev, əsgərlərdən çaxmaqçı kiçik çavuş Hüseyn Sadıqov, doldurucu Kamran Piriyev, baş tuşlayıcı əsgər Tural Babazadə, heyət nəfəri Bəhruz Mikayıllı kimi Vətən oğulları batareyanın uğurlarında əsas pay sahibi olan döyüşçülərdəndir. Onların sayəsində artilleriya batareyası qarşıya qoyulan döyüş tapşırığını yerinə yetirməyə hər zaman hazırdır.

- Vətənə xidmət etmək hər bir gəncin borcudur, - deyə top komandiri çavuş Abuzər Alıyev qeyd edir ki, mehriban bir kollektivimiz var. - Komandirlərimiz də tələbkar olmaqla yanaşı, əsgərlərə yetərincə diqqət göstərirlər. Bir sözlə, burada hər şey ürəyimizcədir. Artilleriya silahının sirlərini də gündəlik məşğələlərdə mənimsəyirik.

Kollektivin qazandığı uğurlarda, təbii ki, ilk növbədə zabitlərin zəhmətini qeyd etmək yerinə düşər. Məhz Rahil Dadaşov kimi savadlı və bacarıqlı zabitlərin sayəsində topçular onlara həvalə edilmiş silahların sirrini lazımınca öyrənir və onlardan sərrast atəş açmağı mənimsəyirlər.



- Yüksək döyüş hazırlığına nail olmaq bütün hərbi kollektivlərin qarşısında duran başlıca vəzifədir, - zabit Rahil Dadaşov bizimlə söhbətində vurğuladı. - Sadə dillə desək, bölmə və əsgərlərə döyüşdə zəruri olan cəhətləri, müasir döyüşdə qarşıya qoyulan döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyi öyrətmək və şəxsi heyətdə yüksək mənəvi-döyüş keyfiyyətləri tərbiyə etmək komandir heyətinin başlıca vəzifəsidir. Hərbi əməliyyatlarda topçulardan çox şey asılıdır və döyüşçülərimiz bunu aydın dərk edirlər.

Döyüş hazırlığı dərslərində, məşq və təlimlərdə əgər şəxsi heyət yüksək ixtisas və taktiki hazırlığa yiyələnirsə, yəni, öz gücünə və döyüş bacarığına inam qazanırsa, deməli, həm də mənəvi-psixoloji hazırlığını artırır. Eyni zamanda hərbçi olaraq Vətəni qorumağın şərəfli peşə sayıldığını, Azərbaycanımıza xidmət etməyin hər bir vətəndaşın müqəddəs borcu olduğunu əsgərlərə başa salmaq, torpaqlarımıza təcavüz etmiş düşmən ordusuna nifrət tərbiyə etmək başlıca vəsifəmizdir. Qeyd edim ki, topçularımızın döyüş ruhu yüksəkdir və onlar qarşılarına qoyulan döyüş tapşırıqlarını yerinə yetirməyə qadirdirlər.

Məşğələ zamanı əsgərlərin həvəslə və çevikliklə artilleriya silahlarını döyüş və yürüş vəziyyətinə gətirmələri, verilmiş koordinatlar əsasında silahı hədəfə istiqamətləndirmələri göstərirdi ki, onlar xidmət müddətində çox şeyə nail olublar.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

## Azərbaycan, Rusiya və Qazaxıstan hərbi dənizçilərinin iştirakı ilə "Xəzər Kuboku-2016" müsabiqəsində hava və dəniz hədəfləri üzrə atışlar keçirilib

"Dəniz kuboku - 2016" müsabiqəsində iştirak edən Azərbaycan, Rusiya və Qazaxıstan hərbi dənizçiləri Xəzər dənizinin poliqonlarında ilk olaraq "hava hədəfləri"nə atışlar keçiriblər.



Ssenariyə əsasən, şərti düşmənin təyyarəsi gəmiyə aviasiya bombası atdıqdan sonra gəmi komandiri vəziyyəti qiymətləndirərək 60 mərmidən artıq istifadə etməmək şərti ilə hava hədəfini məhv etməlidir. Bu mərhələdə hakim kollegiyası tərəfindən gəmilərin poliqona daxil olma vaxtı, atış barədə komandirin qərar qəbuletmə vaxtı, hədəfin dəqiq vurulması və döyüş məşğələsinin yerinə yetirilməsinin ümumi vaxtı qiymətləndirilir.

İkinci mərhələdə dənizçilər dəniz hədəfləri üzrə atış keçiriblər. Dəniz hədəfi qismində xüsusi quraşdırılmış gəmi lövhəsi istifadə edilib. Atışlar təxminən 4500 metr məsafədən artilleriya qurğularından yerinə yetirilib, hədəfin vurulması üçün artilleriya qurğuları heyətlərinə 40 sursat verilib. Qiymətləndirmə birinci mərhələdə olduğu kimi həyata keçirilib.

Rusiyanın "Uqliç" kiçik raket gəmisi, Qazaxıstanın "Oral" raket-artilleriya gəmisi və Azərbaycanın G-124 patrul-mühafizə gəmisinin heyətləri müsabiqənin ilk iki elementini müvəffəqiyyətlə yerinə yetirərək növbəti mərhələlərin hazırlıq işlərinə başlayıblar.

Növbəti mərhələlərdə dənizçilər artilleriya qurğularından üzən minaya atışlar və gəmi manevri keçirməli, gəminin sağ qalması üçün mübarizə zamanı gəminin deliklərinin tutulması və gəmiyə dolmuş suyun çəkilməsi üzrə normativləri yerinə yetirməli və son mərhələdə xilasedici vasitələrdən istifadə etməklə qəza vəziyyətinə düşmüş gəmini vaxtında tərk etməlidirlər.

Azərbaycan hərbi dənizçilərinin yarışlarda iştirakı davam edir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Azərbaycanın və Pakistanın Hərbi Hava Qüvvələri arasında əməkdaşlığın perspektivləri barədə müzakirələr aparılıb

Azərbaycanın və Pakistanın Hərbi Hava Qüvvələri arasında əməkdaşlığın perspektivləri, hər iki ölkədə keçirilən sərgilərdə iştirakın təmin olunması, təcrübə mübadiləsi, qarşılıqlı səfərlərin təşkili məsələləri müzakirə edilib.

Müzakirə Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadənin bu ölkənin Hərbi Hava Qüvvələrinin komandanı, aviasiya marşalı Sohail Aman ilə görüşündə aparılıb.

Görüşdə Ermənistanın Dağlıq Qarabağdakı son təxribatları, Azərbaycanın işğal olunmuş rayonlarında erməni hərbi birləşmələri tərəfindən törədilən vəhşiliklər haqqında məlumat verən səfir Pakistanın ölkəmizə birmənalı dəstəyinin dövlətimiz və xalqımız tərəfindən daim yüksək qiymətləndirildiyini bildirib.

Sohail Aman Pakistanın Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olduğunu, ərazi bütövlüyünü daim dəstəklədiyini qeyd edib. O, ölkəsinin müdafiə sənayesi müəssisələrinin yeni istehsal imkanları haqqında məlumat verib, Pakistan Hərbi Hava Qüvvələrinin bu sahədə də Azərbaycan ilə səmərəli əməkdaşlıq edə biləcəyini diqqətə çatdırıb.

**AZƏRTAC**

## Məqsədimiz torpaqlarımızı işğaldan azad etməkdir

Yeni tədris ilinin başlanması Silahlı Qüvvələrin birlik, birləşmə və hərbi hissələrində böyük canlanmaya səbəb olub. Ön cəbhədə xidmət edən əsgərlərin yeni dərs ilinə necə başladıqlarını öyrənmək üçün dağlar qoynunda yerləşən mövqelərə üz tutduq. Hərbi hissənin qərargahında polkovnik-leytenant Eldəniz Nəsirov bildirdi ki, Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, bütün bölmələr yeni tədris və təlim ilinə başlayıb. "Əsgərlər bu müddət ərzində hərbi biliklərini artıracaq, döyüş vərdişlərini təkmilləşdirəcəklər. Bunun üçün hərb işini yetərincə sevən, mükəmməl bilik və bacarıqlara malik zabit heyəti formalaşıb. Ön xətdə düşmənlə üz-üzə postlarda da dərslər keçirilir."



Hərbi hissə dağlıq ərazidə yerləşdiyi üçün yol-iz enişli-yoxuşlu, çala-çuxurludu. Sürücü avtomobili yola uyğun sürətlə idarə edir. Dağları, dərələri seyr edə-edə yolumuza davam edirik. Yayın qızmar istisi burada hiss olunmur. Yol yoldaşım zabit Ramin Məşədiyev yaranmış sükutu pozur: - Bu yerlərdə zamanında ağır döyüşlər gedib, - deyir. - Burada bir qarış da olsun düşmənə torpaq verilməyib. İndi biz də mövqeləri göz bəbəyimiz kimi qoruyuruq. Düşmən dəfələrlə postlarımızı almağa cəhd edib, ancaq igid əsgərlərimizin sayıqlığı nəticəsində itki verərək geri çəkilib.

Yolumuzun üzərində kəndlər sıralanıb. Təmas xəttinin lap yaxınlığında kəndlilər təsərrüfat işləri ilə məşğuldurlar. Onlar ona görə əmin-arxayındırlar ki, qarşılarında məğrur Azərbaycan əsgəri dayanıb. Döyüşçülər hər zaman sayıqlığını artırmaqla erməni işğalı altında olan yurd yerlərimizi azad etmək üçün əmr gözləyirlər. Hər bir əsgərin başlıca məqsədi, amalı düşmən tapdağında olan torpaqlarımızı azad etməkdir.

...Əzəmətli yüksəkliyə çatanda burada baş leytenant Tarik Hüseynovla görüşürük. Zabit bölmənin dayaq məntəqəsində heç bir hadisənin baş vermədiyini bildirərək bizimlə səngərə baş çəkir. İstehkamçılar döyüş aparmaq üçün tam hazır vəziyyətdədirlər. Zabitin ilk baxışdan qayğıkeş, tələbkar olduğu postlarda yaradılan nizam-intizamdan da bəlli olurdu.

Günün nizam qaydalarına əsasən, postda olan şəxsi heyətin məşğələ vaxtı idi. Döyüş növbəsində dayanan əsgərlərdən başqa hamı məşğələyə cəlb olunmuşdu. Biz bölmədə olarkən şəxsi heyətə "Həyəcan" komandası verildi. Hamı dərhal yerindən qalxdı. Hər kəs silah-sursatları, döyüş dəstlərini götürüb toplanış üçün təyin edilmiş yerdə cəmləşdi. Əsgərlərin postun hansı cinahına çıxacaqları növbəti komanda ilə müəyyən ediləcəkdi. Hələlik isə şəxsi heyətin deyilən vaxtda və tam təchizatı ilə toplaşma yerinə qədər olan komandanı necə yerinə yetirdiyi yoxlanıldı. Təlimata uyğun post böyüyü "Həyəcan" siqnalı alandan sonra növbətçi ilə komandanı dəqiqləşdirməlidir. Bundan sonra o, bölmə komandirinə məlumat verməli və dərhal silah otağına keçib şəxsi heyətə silah-sursat verməlidir. Deyilən qaydalar əsgərlər tərəfindən vaxtında və dəqiqliklə yerinə yetirilirdi.



Zabit Tarik Hüseynov deyir ki, şəxsi heyətin döyüş vərdişlərinin möhkəmləndirilməsi baxımından vaxtaşırı belə tədbirlərin keçirilməsi olduqca əhəmiyyətlidir.

Həmsöhbətim kiçik çavuş Valeh Mirzəyevdir. O deyir ki, dörd ildən artıqdır cəbhə bölgəsində xidmət edir. Düşmənlə təmas xəttində olduqları üçün daim ayıq-sayıqdılar və atəş sektorlarında qarşıdakı ərazini tam nəzarətdə saxlayırlar.

Döyüş postunda ayıq-sayıqlığı ilə fərqlənən əsgərlərin hər biri ilə qısa tanışlıqdan məlum oldu ki, ölkəmizin ayrı-ayrı bölgələrindən hərbi xidmətə gəliblər. Onların məqsədi Vətənimizi erməni işğalçılarından qorumaqdır. Sabirabadlı Surxay Nəsirovun, zaqatalalı Məhərrəm Xəlilovun, ağdaşlı Hüseyn Əhmədxanlının, beyləqanlı Qalib Qarayevin, tərtərli Allahverdi Allahverdiyevin, ucarlı Səməd İsmayılovun və başqalarının yalnız bir arzusu var: erməni tapdağı altında qalan torpaqlarımızı tezliklə azad etmək.

Xidmətə başladıqları ilk gündən dərs və təlimlərdə fəallıq göstərən bu əsgərlər əldə etdikləri bilik və bacarıqlarla kifayətlənmir, əksinə, hərbi vərdişlərini daim təkmilləşdirməklə ən bacarıqlı döyüşçü kimi formalaşırlar.

**Mayor Bəxtiyar ƏLİYEV, "Azərbaycan Ordusu"**

Fiziki hazırlıq

# “Özümüzə güvənirik”



*Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində olduğu kimi, idman sahəsi də dövlətçiliyimizin təşəkkülündə və inkişafında misilsiz rol oynamış, görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Çıxışlarının birində "İdman insanları həm fiziki, həm də mənəvi cəhətdən yüksəldən bir vasitədir" deməsi bu sahəyə verdiyi önəmin göstəricisidi.*

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin uzaqgörən dövlət xadimi və siyasətçi kimi sağlam gənclik yetişdirmək, bununla da xalqımızın sağlam gələcəyini təmin etmək üçün idmanı ümumxalq hərəkatına çevirmək siyasəti, təkcə paytaxt Bakıda deyil, bölgələrimizdə də idman-sağlamlıq komplekslərinin tikilib istifadəyə verilməsi, idmanın müxtəlif sahələrinin inkişafı üçün güclü maddi-texniki baza yaradılması xalqın sağlam gələcəyinə yönəlmiş müdrik siyasətinin parlaq təzahürüdür.

Ölkə rəhbərliyinin hər sahədə göstərdiyi diqqət və qayğının fərqində olan gənclik Vətənə layiqli, düşmənə isə göz dağı olan nəsil kimi yetişir.

Həmsöhbətim "N" hərbi hissəsinin fiziki hazırlıq və idman üzrə cavabdeh zabiti baş leytenant İlkin İbrahimovdur. Onunla hərtərəfli şəraitə malik idman şəhərciyində qarşılaşdıq. Sözlərinə görə, hərbi hissədə idmana ciddi diqqət yetirilir.

Əsgər Ağayar Nəcəfov hərbi xidmətə Bakı şəhərindən çağırılıb. Yeniyetmə vaxtlarından cüdo ilə məşğul olub. Respublikada keçirilən cüdo yarışında 3-cü yer tutan gənc ölkələrarası turnirlərdə iştirak edib. Bu əsgərdə uzun illər idmanla məşğul olmanın verdiyi güvən hissi vardı. "Tək məqsədim üçrəngli bayrağımızı qaldıra bilməkdi. Yarışlarda çətin rəqiblərim olmasına baxmayaraq, fəxri pillənin ən yüksək pilləsində qərarlaşdım. Bayrağımız ən ucaya qalxdı, himnimiz səsləndi. Biz əsgərlər özümüzə, döyüş hazırlığımıza güvənirik. Bu güvən hissi ilə Qarabağı da azad edəcək, bayrağımızı ən uca zirvələrə sancacaq, himnimizi oxuya-oxuya doğma dədə-baba torpaqlarında fərəhlə gəzəcəyik.”



Çavuş Çingiz Əsgərov isə uzun illər ağır atletika ilə məşğul olmağın faydasını gördüyünü deyir:

- Hər bir gənc idmana önəm verməlidir. Bilməlidir ki, qarşısında düşməni, işğal altında olan torpağı var. Haqq davasında qələbə üçün psixoloji hazırlıqla yanaşı, fiziki güc də əsas rol oynayır.

Əsgərlər Nahid Eminli və Tahir Kərimov da söhbətə qoşuldular. Nahid 3 ilə yaxın futbolla, Tahir isə həvəskar boksla məşğul olduğunu bildirdi.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**M.MÖHBALIYEVİNDİR**

---



Nümunəvi xidmət

# Təcrübəli sürücü

*Cəbhə bölgəsində yerləşən hərbi hissənin tibb məntəqəsindəyəm. Tibb xidməti mayoru Akif İsmayılovla yazın ilk günlərində cəbhədə yaranmış gərginlik müzakirə mövzumuzdur. Arxada qalan həmin hadisələr onun üçün sanki bir yuxudur. Həkim deyir ki, aprelin ilk gününə qədər ermənilər bir neçə gün əvvəldən mövqelərimizi fasiləsiz olaraq müxtəlif silahlardan atəşə tuturdu.*

Akif həkim o gərgin anlarda tabeliyində olan həkim və feldşerlərlə birgə döyüşlərdə olub. Yaralılarımıza ilk tibbi yardım göstərib və onların vaxtında səyyar tibb taboruna çatdırılmasını təmin edib. Həmin anları xatırlayan həkim deyir:

- On beş ildən artıqdır ki, əsgərlərin sağlamlığının keşiyindəyəm. Ölkəmiz müharibə şəraitindədir. Torpaqlarımızın 20 faizi Ermənistanın işğalı altındadır. Mənfur ermənilərin işğal etdikləri doğma torpaqlarımızı azad etmək üçün bütün gücümüzlə çalışırıq. Mən də həkim kimi üzərimə düşən bütün tapşırıqları layiqincə yerinə yetirirəm. Aprel döyüşləri zamanı rəhbərlik etdiyim tibbi bölmənin həkim və texniki işçiləri yüksək bacarıq nümayiş etdirdilər. Vaxtında yaralı döyüşçülərə tibbi yardım göstərdik və onların həyatlarını xilas etdik.

Tibb xidməti mayoru A.İsmayılov ən çətin günlərində onunla çiyin-çiyinə çalışan gizir Mais Ağarəhimovun əməyini yüksək qiymətləndirdi.

Həkim həmin günlərdə bacarığı, cəsarəti ilə seçilən daha bir hərbi qulluqçunu, sürücü-mexanik kiçik çavuş Nadir Tağıyevi misal göstərdi. Bildirdi ki, hərbi hissə döyüş meydanından vaxtında çıxarılıb hospitala çatdırılmasında onun da böyük xidmətləri olub. "Təcrübəli, qorxmaz sürücü düşmənin fasiləsiz mərmi yağdırdığı əraziyə daxil olaraq yaralıları ən qısa zamanda döyüş meydanından çıxarmağı bacarırdı."

Sürücü əsgərlə tibb məntəqəsində görüşdüm. O, yeddi ildən artıq müddətdir ki, xidmətdədir. Salyan rayonundan olan Nadirin ən böyük arzusu sürücü olmaq olub. Onun hərbi xidmətə yenidən gəlməsinə səbəb də elə bu istəkmiş.

Nadir dedi ki, istifadəsindəki avtomobilə hər gün texniki qulluq göstərmək onun vəzifə borcudur. O, "Çıxış" siqnalı gələndə avtomobilin saz vəziyyətdə olmasına həmişə əmindir.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

---

Ovqat

# Balaca istedadın əsgərlərimizə müraciəti

Şirin-şəkər Nuray Rəhmanın beş yaşı var, özü də çox istedadlı bir qızcığazdır. Hələ məktəbə getməsə də, skripkada gözəl ifa etməyi bacarır. Onu yaşıdlarından fərqləndirən təkcə musiqi ifaçılığı deyil. Nuray həm də vətənpərvər mahnıları zövqlə oxuyur. Bu istedadlı cəhəti onu internet saytlarında populyar edib.



Nuray musiqiçi valideynləri Əkbər və Gülnar Rəhmanlar ilə birlikdə Şahin Musaoğlunun məşhur bəstəsi olan "İgid əsgər, möhkəm dayan" mahnısına klip də çəkdirib.

Vətənimizin müdafiəsində dayanan, onun sərhədlərinin keşiyini çəkən Azərbaycan əsgərinə həsr edilmiş musiqi parçası ona çoxsaylı izləyici qazandırıb.

Bir qədər sürətli tempdə səsləndirilən klipdə Nurayın da bacarıqla ifa etdiyi skripka əsas alət kimi ön plana çıxır və ürəyə yatır. Klipdə diqqəti çəkən ən önəmli məqam isə hərbi geyimdə, üçrəngli bayrağımızı kürəyinə bağlamış balaca qızımızın mahir ifaçılığı ilə yanaşı, səhnə bacarığıdır. Onunla yanaşı əsərdə valideynləri Əkbər və Gülnar Rəhmanlar da çəkilmiş, Azərbaycan əsgərinin obrazını maraqlı rakursdan göstərə bilmişlər.

Kliplə bağlı Nuray Əkbərin yaşıdlarına ünvanladığı sözlər də diqqətəlayiqdir: "Biz, balaca uşaqlar rahat yata bilərik. Ona görə ki, bizi fədakar, cəsur, qorxmaz əsgər və zabitlərimiz qoruyur.”

Youtube məkanında dinləyicilərin həvəslə baxdığı və qulaq asdığı klipin rejissoru Nail Naiboğlu, aranjemançısı isə Vasif Arifoğludur.

Onu da qeyd edək ki, balaca Nuray Türkiyədə də tanınır. Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının nəzdində fəaliyyət göstərən "Oyuq" studiyasında ilk addımlarını atan Nuray qardaş ölkədə keçirilən "Bala Türkvizyon" adlı ilk uşaq mahnı yarışmasında qalib adını qazanıb.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

Hərbi xidmətə Ağcabədi rayonundan çağırılan əsgər Məhəmməd Cəfərovla Gədəbəyin dumanlı dağlarında tanış oluram. Zirvədəki döyüş postunda xidmət edən Məhəmməd 13 aydır ki, bu səngərlərdə Vətənimizə keşik çəkir. Səngərlərə getməzdən əvvəl yataqxanada bir qədər əyləşib nəfəs dərmək istəyirik. İçəri daxil olanda masa arxasında əyləşən Məhəmmədi görürəm. Əlində qələm, qarşısında yarıya qədər yazılmış vərəq. Necə də xoş mənzərədir, ürəyində Vətən sevgisi, əynində şanlı ordumuzun forması və sevdiklərinə məktub yazan Azərbaycan əsgəri... Bir neçə dəqiqə onu izləyirəm. İzlədikcə düşünürəm ki, görəsən, sevgilisinə məktub yazır? Bəlkə də ailəsinə, bəlkə dostlarına, bəlkə?.. Marağım mənə qalib gəlir. Onu düşüncələrindən ayırıram. Əsgər Cəfərov qələmini saxlayıb mənimlə salamlaşır. Məktubu Ağcabədi rayonunun Palıdlı kəndində yaşayan ailələrinə yazdığını öyrənirəm. Bu məktubu qəzetimizdə dərc etmək istədiyimi deyəndə, onun üzündə təbəssüm yaranır. Bir azdan məktubu tamamlayıb mənə təqdim edir:

# Əsgər məktubu



*"Salam, əzizlərim, necəsiniz? Xidmətim uğurla davam edir. Məndən nigaran qalmayın. Sizlər üçün darıxsam da, burada da doğma kollektivimiz var. Əsgər yoldaşlarım və komandirlərimizlə birlikdə bir ailəyik. Çiyin-çiyinə Vətəni qoruyuruq.*

*Əziz anam, bilirəm mənim üçün nigaransan. Nə yeyir, nə içir düşünürsən. Arxayın ol ki, bizə hər gün isti yeməklər verilir. Həm də milli mətbəximizin dadlı yeməkləri. Təkcə qida yox, bütün təminatlarımız yüksəkdir. Xidmət etmək üçün hər cür şərait yaradılıb. Döyüş postunun dağın zirvəsində yerləşməsinə baxmayaraq, tərtəmiz yataq dəstləri ilə təmin olunuruq, daim isti suyu olan hamamxanamız var.*

*Yadındadır ana, məni xidmətə yola salanda demişdin ki, "Oğul, Vətən sizin əbədi ananızdır. Ana Vətənin keşiyində möhkəm dayanın! Ona sadiq, vətənpərvər döyüşçü olun!"*

*Bu sözləri heç zaman unutmuram. Sözlərin mənə daha da güc verir. Xidmətimi ayıq-sayıq aparır, Vətənimizə göz dikən düşmənləri məhv etmək məqamını gözləyirəm. Əziz anam, Vətənimizin ürəyi yaralıdır, Qarabağ həsrəti çəkir. Mən və bütün əsgər yoldaşlarımın da ürəyi bu həsrətlə döyünür. Döyüş meydanında hünər göstərmək, düşməni məhv etmək üçün əmr gözləyirik. Gözlərimizdə nifrət, ağlımızda qisas, ürəyimizdə Vətən sevgisi və Qarabağ həsrəti ilə xidmət edirik.*

*Qardaşım Adəm birinci sinfə getməyə hazırlaşır. Əvvəlcədən Bilik gününü təbrik edirəm. Hərbi andiçmə günümdə Adəm "İgid əsgər" şeirini deyib məni təbrik etmişdi. Ona ən böyük arzum odur ki, təhsilini başa vurub Qarabağ torpaqlarına əsgəri xidmətə yollansın.*

*Ata, sənə xidmətimdən danışmaq istəyirəm. Sənin dediyin kimi nizam-intizamlı əsgər olmaq, Azərbaycan Ordusuna layiqli xidmət etmək üçün əlimdən gələni edirəm. Komandirlərimin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirirəm. Döyüş növbəsində ayıq-sayıq dayanıram. Asudə vaxtlarımda silahıma qulluq edir, idmanla məşğul oluram. Peşəkar komandirlərimiz bizləri bacarıqlı döyüşçü kimi yetişdirir. Onlar bizə silahla davranma qabiliyyəti, döyüş taktikası və s. hərbi bilikləri öyrədir, döyüş ruhu aşılayırlar. Onlara dərin minnətdarlığımı bildirirəm. Xidmətimi uğurla başa vurub sizlərin yanına alnıaçıq qayıtmağın arzusundayam. Hələlik, Allah amanında...*

*Sizin Məhəmməd."*

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Hərbi yeniliklər, ənənələr



## Mi-17 helikopteri

Mi-17 döyüş-nəqliyyat helikopteri Rusiyanın Kazan şəhərində istehsal olunur. Helikopter 1400 kilovat gücündə iki qazturbinli güc qurğusundan ibarətdir. Maşında transmissiya kimi VR-14 reduktorundan istifadə edilir. Bu helikopter gecə və gündüz, müxtəlif iqlim şəraitində işləməyə qadirdir. Silahlanma kimi PŞ-23 topundan və irikalibrli pulemyotdan istifadə edilir. Onun asılqanında müxtəlif növ döyüş qurğuları da yerləşdirmək olar. Mühərrikin gücü 2x1400 kilovat, maksimal uçuş sürəti saatda 250 kilometr, kreyser sürəti saatda 240 kilometr, uçuş uzaqlığı 465 kilometr təşkil edir. Rəqəmlərdən göründüyü kimi helikopterin xüsusiyyətləri digər müasir maşınlardan fərqlidir.

XX əsrin 80-ci illərində Mi-17 döyüş-nəqliyyat helikopterinin modernləşdirilməsi həyata keçirilib və Mi-171 indeksi ilə istehsal olunub. Onun bazası əsasında cərrahi otaqla təchiz olunmuş Mi-171VA uçan hospital helikopteri hazırlanıb. Maşın yaralıları daşımaq və onlara təcili tibbi yardım göstərmək üçün nəzərdə tutulub.

Mi-17 helikopterinin əsasında xüsusi aparatla təchiz olunmuş uçan "ekoloji laboratoriya" maşını yaradılıb. Ondan ətraf mühitə nəzarət, yer qatının və atmosferin öyrənilməsi, radioloji nəzarət, ərazinin təhlil edilməsi üçün istifadə edilir. Meşələrdə və çətin keçidli ərazilərdə yanğın təhlükəsinin aradan qaldırılması üçün yanğınsöndürmə varianti da mövcuddur. Maşın iki kubmetr həcmində suaşıran qurğu ilə təchiz edilib. Helikopterin digər modeli isə antena çərçivəli Mi-17PL-dir. O düşmən təyyarələrinin və zenit-raket komplekslərinin radiolokasiya stansiyalarının, hava hücumundan müdafiə sistemlərinin məhv edilməsi üçün nəzərdə tutulub. Mi-17MD isə desantların daşınması üçündür. Mi-17 yarandığı gündən indiyə qədər öz populyarlığını itirməyib.

## "Qarpun" raketinin sınağı

Bu yaxınlarda ABŞ Hərbi Hava Qüvvələri Qavayada RİMPAS beynəlxalq hərbi dəniz təlimində gəmiləyhinə "Qarpun" qanadlı raketinin ilk sınağını həyata keçirib. Raketin məhvetmə qabiliyyətinin yüksəldilməsi yoxlanılıb. Hazırda "Qarpun" raketi ABŞ-ın hərbi gəmisində yerləşdirilib.



Verilən məlumata görə, Amerikanın gəmiləyhinə "Qarpun" qanadlı raketi dünyada geniş yayılmış raketlərdən biri sayılır. Raket MaxDonnel-Duqlas şirkəti tərəfindən hazırlanıb və hazırda Boinq korporasiyasının müəssisəsində istehsal olunur.

Maksimal atəş uzaqlığı onun daşıyıcısından, raketin modifikasiyasından və hədəf göstəricisindən asılı olaraq 90 kilometrdən 220 kilometrə qədər təşkil edir. Silahın çəkisi 742 kiloqram, döyüş hissəsinin çəkisi 235 kiloqram, sürətləndirici ilə birlikdə uzunluğu 5.18 metr, qanadlarının diametri 0.34 metr, uçuş uzaqlığı 280 kilometr təşkil edir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## İordaniya məhkəməsi terrorçuya ölüm cəzası kəsib



Yerli KİV-lərin yaydıqları məlumata görə, İordaniya məhkəməsi Əmman yaxınlığında fələstinli qaçqınların məskən saldığı Al-Bakaa düşərgəsində yerləşən milli xüsusi xidmətin ofisinə hücum etmiş terrorçu barədə ölüm hökmünü verib.

Xatırladaq ki, hücum bu il iyunun 6-da baş verib. Xüsusi xidmətin ofisinə terrorçuların avtomat silahdan açdıqları atəş nəticəsində təhlükəsizlik xidmətinin 5 əməkdaşı, o cümlədən 3 zabiti həlak olub.

## Fəsillər yerini dəyişə bilər



Təbii mövsüm dəyişikliyi təhlükə altındadır. Qlobal iqlim dəyişikliyi artıq o qədər ciddidir ki, alimlər fəsillərin dəyişməsinin təbii və normal olmadığını proqnozlaşdırırlar.

Bu barədə kanadalı alimlər Robert Skraybler və Polo Bekvit bildiriblər. Onların məlumatına görə, Şimal yarımkürəsi artıq ekvatordan kənara çıxır. Bu isə gələcəkdə yay və qışın yerini dəyişməsinə gətirib çıxaracaq.

Məhz iki okean cərəyanı arasındakı baryeri qış və yay arasında olan dəqiq fərq tənzimləyir. Bu tarazlığın pozulması təbii fəlakətlərə, o cümlədən ərzaq böhranına səbəb olacaq.

## Dubay aeroportunda uğursuz eniş edən təyyarənin 10 sərnişini xəstəxanaya çatdırılıb



Dubay aeroportunda uğursuz eniş edən "Emirates" şirkətinə məxsus təyyarənin 10 sərnişini xəstəxanaya çatdırılıb.

Onlar hadisə zamanı aldıqları yanıq xəsarətindən və tüstüdən boğulma səbəbindən xəstəxanaya aparılıb.

Xatırladaq ki, uğursuz enişdən sonra təyyarənin mühərrikində partlayış baş vermişdi. Hadisə zamanı hava gəmisində 300 nəfər olub. Onlardan 282-si sərnişin, 18-i isə heyət üzvüdür.

## Şimali Koreya növbəti dəfə ballistik raket atıb



Avqustun 3-də Şimali Koreya Yapon dənizi istiqamətində növbəti dəfə ballistik raket atıb.

Bu barədə RİA Novosti Agentliyi məlumat yayıb.

Cənubi Koreya Silahlı Qüvvələrinin qərargah rəislərinin birləşmiş komitəsinin bəyanatına əsasən, raket atışı Xvanxe-Namdo əyalətində həyata keçirilib. Bu ölkədə ballistik raketlərin son sınaqları iyulun ortalarında olmuşdu.

Yaponiya sınaqlarla bağlı Pxenyana etirazını bildirib.

## İran ilə Almaniya neft-kimya müqaviləsi imzalayıb




İranın "Kian" şirkəti ilə Almaniyanın neft-kimya nəhəngi "Linde Group" şirkəti İranın Aseluye bölgəsindəki olefin istehsal vahidinin ilk mərhələsi üçün mühəndislik və dizayn fəaliyyəti üzrə müqavilə imzalayıblar.

Birillik müqavilə təxminən 35 milyon avroluq maliyyə krediti ilə imzalanıb. İranın neft nazirinin müavini Marzieh Şahdaiye "Linde" şirkətinin İrandakı sərmayələrinin mühəndislik, satınalma, istehsal müqavilələri çərçivəsində reallaşdırılacağını və şirkətin bu ölkənin Aseluye bölgəsindəki ən böyük neft-kimya layihələrindən birini həyata keçirəcəyini deyib.

**AZƏRTAC-ın materialları əsasında**

# Ağdamda eramızdan əvvəl VI-IV əsrlərə aid saxsı qablar aşkar edilib





***Ağdam rayonunun Ergi ərazisində eramızdan əvvəl VI-IV əsrlərə aid saxsı qablar - cam, kasa və dolça aşkar edilib. Maddi mədəniyyət nümunələrini Mərzili kəndindən məcburi köçkün İlqar Məmmədov təsərrüfat işləri apararkən tapıb.***

Əşyalara baxış keçirən Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi Təvəkkül Əliyev AZƏRTAC-a bildirib ki, Ergi ərazisində aparılan arxeoloji qazıntılar zamanı hələ 30 il əvvəl bir sıra maddi mədəniyyət nümunələri aşkar olunmuşdu. Lakin son 10 illiklərdə bu ərazilərdə tədqiqat işləri aparılmayıb. Bununla bərabər ərazidə təsərrüfat işləri zamanı çoxlu maddi mədəniyyət nümunələri tapılır. Bu nümunələr yerli sakinlərdə saxlanılır.

Qarabağ bölgəsində çalışan arxeoloqlar Ergi ərazisində ayrı-ayrı evlərdə saxlanılan əşyalarla tanış olublar. Bu əşyaların arasında Əhəməni dövrünə aid cam, kasa və dolça tipli qablar xüsusi əhəmiyyət kəsb edir. Çünki eramızdan əvvəl VI-IV əsrlərə aid belə qablara bu bölgədə çox nadir hallarda rast gəlinir.

Aşkar edilən əşyalar Ağdam Tarix-Diyarşünaslıq Muzeyinə təhvil verilib. Muzeyin direktoru Ülvi Qədirov bildirib ki, 1962-ci ildə yaradılmış və 2500-dən artıq eksponatın sərgiləndiyi Ağdam Tarix-Diyarşünaslıq Muzeyi Ağdam şəhərinin 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı talan edilib. 2001-ci ildə yerli əhalinin köməyi ilə rayonun işğal edilməmiş ərazilərindən toplanan, bərpa edilən, həmçinin arxeoloji tədqiqatlar nəticəsində tapılan maddi mədəniyyət nümunələrinin hesabına muzey yenidən fəaliyyətə başlayıb. Hazırda Qaradağlı kənd Mədəniyyət Evinin binasında fəaliyyət göstərən muzeydə 1000-dən artıq eksponat sərgilənir.

# Müharibə əlilləri və şəhid ailələrinə fərdi yaşayış evləri verilib

***Avqustun 4-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Cəlilabad rayonunda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün inşa edilmiş 8 yeni fərdi yaşayış evi istifadəyə verilib.***



AZƏRTAC xəbər verir ki, fərdi yaşayış evlərinin açarlarının təqdim olunması mərasimində çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun direktor müavini Əminə Seyidzadə Prezident İlham Əliyevin sosial sahəyə xüsusi diqqət və qayğısının ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsinə şərait yaratdığını bildirib.

Ə.Seyidzadə çıxışında dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunduğu ölkəmizdə bütün sosial proqramların icrasının uğurla davam etdirildiyini, Qarabağ müharibəsi əlillərinin və şəhid ailələrinin mənzillə təminatı istiqamətində də mühüm addımların atıldığını vurğulayıb.

Direktor müavini diqqətə çatdırıb ki, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 iyun tarixli sərəncamına əsasən, ölkəmizin müxtəlif bölgələrində fərdi və çoxmənzilli yaşayış evləri, həmçinin hazır yaşayış binalarından alınaraq təmir etdirilmiş mənzillər həmin insanların istifadəsinə verilir. Sərəncamın icrası işlərinin davamı kimi, cari ilin ötən dövründə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 223 nəfər şəxsə, o cümlədən 140 nəfər Qarabağ müharibəsi əlilinə, 83 şəhid ailəsinə müasir tələblərə cavab verən yeni mənzillər təqdim olunub.

Qeyd edilib ki, bu təbəqədən olan vətəndaşların Azərbaycan Prezidentinin aylıq təqaüdləri və sosial müavinətlərlə, əmək pensiyaları ilə təminatı da gücləndirilir. Cari ilin yanvarında dövlət başçısının müvafiq fərman və sərəncamları ilə bu sosial ödənişlərin növbəti dəfə artırılması təmin edilib.

Tədbirdə əlilliyi olan şəxslərin, o cümlədən müharibə əlillərinin tibbi-sosial reabilitasiyası, onların səmərəli bərpa-müalicə sistemi ilə əhatə olunması yönündə görülən işlərdən də bəhs olunub.

Yeni mənzillə təmin olunan Qarabağ müharibəsi əlilləri və şəhid ailələri onların maddi təminatlarının gücləndirilməsi, eyni zamanda mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlərdən razılıq ediblər. Onlar hərtərəfli dövlət qayğısı ilə əhatə edildiklərinə, hazırda isə yeni mənzillərlə təmin olunduqlarına görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Misir mətbuatı Metsamor AES-in yaratdığı təhlükələr barədə yazır

Misirin "Yaşasın Misir" qəzeti, "Asiyaelyoum" agentliyi, "Elaph" internet qəzeti Ermənistanın Metsamor Atom Elektrik Stansiyasının Qafqaz regionu, habelə bütün dünya üçün təhlükə mənbəyi olması barədə məqalə yayıb. Məqalədə Metsamor AES-in yaratdığı təhlükələr, son zamanlar nüvə və radioaktiv materialların qaçaqmalçılığında Ermənistanın xüsusi rol oynaması ilə bağlı faktlar diqqətə çatdırılır.

Məqalədə müasir dövrdə atom elektrik stansiyalarının beynəlxalq təhlükəsizlik qarşısında duran əsas problemlərdən biri olduğu, nüvə terrorçuluğunun beynəlxalq sülhə və təhlükəsizliyə çox ciddi təhdidlər yaratdığı, nüvə enerjisi məsələsinin daha çox nüvə qəzaları ilə gündəmə gəlməkdə olduğu qeyd edilir.



XX əsrin ən dəhşətli faciələrindən biri hesab olunan Çernobıl fəlakətinə, 2011-ci il martın 11-də Yaponiyada baş vermiş şiddətli zəlzələ nəticəsində "Fukusima-1" Atom Elektrik Stansiyasında baş verən sızmaya toxunularaq, Ermənistanın Metsamor Atom Elektrik Stansiyasının dünyadakı ən təhlükəli stansiyalardan biri olduğu diqqətə çatdırılır, onun tarixindən, törətdiyi fəsadlardan, region və dünya üçün ciddi təhlükə olmasından bəhs edilir.

Cənubi Qafqaz kimi geostrateji əhəmiyyətli, müxtəlif maraqların toqquşduğu, Şərq ilə Qərb arasında siyasi-iqtisadi baxımdan önəmli dəhlizin təhlükəsizliyi məsələsinin Qərb dövlətlərini də narahat etməli olduğunu bildirən müəllif region dövlətlərindən birində baş verən hər hansı bir fəlakətin bu və ya digər dərəcədə bölgənin digər dövlətlərinə də təsir göstərəcəyini qeyd edir. Digər tərəfdən, Metsamorun köhnə olması, müasir AES-lərdən geridə qalması vurğulanaraq, Ermənistanın 35 yaşlı reaktorunun region hansı miqyasda təhlükə ilə üz-üzə qoyduğu təkcə region dövlətlərini deyil, beynəlxalq aləmi də düşündürməli olduğu diqqətə çatdırılır.

# İdman

## Azərbaycan millisi Bolqarıstan, Danimarka və Macarıstan yığmaları ilə qarşılaşacaq



Xəbər verdiyimiz kimi, çimərlik futbolu üzrə Azərbaycan milli komandası avqustun 9-dan 15-dək Macarıstanın Siofok şəhərində keçiriləcək Avropa Liqasının seçmə mərhələsində çıxış edəcək. Millimizin oyunlarının təqvimi müəyyənləşib. Futbolçularımız avqustun 12-də Bolqarıstan, bir gün sonra Danimarka, avqustun 14-də isə Macarıstan yığması ilə qarşılaşacaq. İlk iki oyun Bakı vaxtı ilə saat 14:15-də, üçüncü qarşılaşma isə 19:00-da başlayacaq.

## "İnter" klubu İtaliya millisinin üzvünü transfer edir




İtaliyanın "İnter" klubu daha bir futbolçunu heyətinə cəlb edir. Milan təmsilçisi "Latsio"nun hücumçusu Antonio Kandrevanı transfer edir. İtaliya millisinin üzvü tibbi baxışdan keçmək üçün Milana gedib. Daha sonra 29 yaşlı futbolçu "İnter"lə müqavilə imzalayacaq.

Transferə görə "İnter" paytaxt klubuna 21 milyon avro ödəyəcək.

## Azərbaycanın U-17 komandası Gürcüstanın U-19 yığmasına qalib gəlib



"Dalğa Arena"da futbol üzrə 17 yaşadək qızlardan ibarət Azərbaycan yığması Gürcüstanın U-19 komandası ilə yoldaşlıq oyunu keçirib. Yığmamız 2:0 hesabı ilə qələbə qazanıb. Qolları Anna Abunaşvili və Çeri Pınar vurublar.

## "Qalatasaray" basketbol komandası heyətini azərbaycanlı idmançı ilə gücləndirib



Türkiyə Super Liqasının kişi basketbolçulardan ibarət "Qalatasaray Odeabank" komandası ötən mövsüm "Acibadem Universiteti" klubunda forma geyən Orxan Hacıyevi transfer edib.

26 yaşlı və 2.03 metr boya sahib azərbaycanlı basketbolçu ilə bir illik müqavilə imzalanıb.

O.Hacıyev karyerası ərzində Türkiyənin "Acibadem Universiteti" ilə yanaşı, "Türk Telekom", "Pertevniyal", "Aliağa Petkim" və "Uşak Sportiv" klublarının da şərəfini qoruyub.

## "Sumqayıt" iki futbolçu ilə müqavilə imzalayıb



Topaz Premyer Liqasının 2016-2017-ci illər mövsümünə hazırlaşan "Sumqayıt" futbol klubu heyətini gücləndirib.

Komanda İran Pro liqasında çıxış edən "Traktorsazi" və "Perspolis" klublarının keçmiş futbolçuları, əslən azərbaycanlı olan İbrahim Abidnejad və Əfşin İsmailzadə ilə iki illik müqavilə imzalayıb.

**AZƏRTAC-ın materialları əsasında**

Əsgər Məmmədov Ülvü Sehran oğluna 2015-ci ildə verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 451
Nüsxə 4650